# “Məktəbəqədər təhsil proqramı (kurikulum)”nın təsdiqi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

“Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 iyun tarixli 1057 nömrəli Fərmanının 2.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** “Məktəbəqədər təhsil proqramı (kurikulum)” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 1998-ci ildə təsdiq edilmiş “Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı” və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10 iyul 2012-ci il tarixli 1329 nömrəli əmri ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş)” ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının Təhsil İnstitutu (Rüfət Əzizov) “Məktəbəqədər təhsil proqramı (kurikulum)”nın əsasında metodiki tövsiyələrin hazırlanmasını təmin etsin.

**4.** İctimaiyyətlə əlaqələr sektoru (Cəsarət Valehov) bu əmrin “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını, eyni zamanda həmin əmrin əlavəsi ilə birlikdə Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**5.** İnformasiya və vətəndaşlara xidmət şöbəsi (Rəşad Xanlarov) bu əmrin əlavəsi ilə birlikdə Nazirliyin aidiyyəti struktur bölmələrinə çatdırılmasını təmin etsin.

**6.** Əmrin icrasına nəzarət nazir müavini Firudin Qurbanova həvalə olunsun.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*11 aprel 2022-ci il*

Azərbaycan müəllimi.- 2022.- 15 aprel.- S.4.